www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-06 (1810) 31 mart 2025-ci il



## Yeni tədris proqramlarının hazırlanması müzakirə olunub

**İlk dəfə olaraq prosesdə əmək bazarının nümayəndələri də iştirak edir**

səh. 2

### Rektor əməkdaşları Novruz və Ramazan bayramları münasibətilə təbrik edib

səh. 2

### Professor Gəray Gəraybəyli universitetimizin şəhid ailə üzvləri ilə görüşüb

səh. 2

### Tələbə klublarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzindədir

səh. 4



### Həkimlərimizə inanır və güvənirik

Rektor, professor Gəray Gəraybəyli: Hər gün minlərlə insan müayinə və müalicə üçün həkimə müraciət edir, tibbi yardım alır, əməliyyat olunur, həyata qayıdır

səh. 3

### Vərəmdən heç kim sığortalanmayıb

*Rafiq Bayramov: Xəstəliyini hamıdan gizlətməyə çalışanlar bilməlidir ki, vərəm tam müalicə olunur*

səh. 5

### Yeniyetmələrin sağlamlığı strateji məsələdir

*Dosent Şəhla Balayeva: Bu dövrdə yalnız böyümə və inkişaf baş vermir, həm də sosial kimlik formalaşır*

səh. 4



### İctimai səhiyyə fakültəsində tələbə elmi konfranslarına start verilib

Dekan Qalina Qəniyeva: Ötən il 80 elmi iş təqdim olunmuşdusa, bu il həmin göstərici 101-ə çatıb

səh.5

# Yeni tədris proqramlarının hazırlanması müzakirə olunub

## İlk dəfə olaraq prosesdə əmək bazarının nümayəndələri də iştirak edir



**Azərbaycan Tibb Universitetində yeni tədris proqramlarının hazırlanması üzrə işçi qrupun iclası keçirilib. Görüşdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli qarşıdakı 5 il üçün universitetdə tədris edilən ixtisaslar üzrə proqramların hazırlanmasına başlandığını bildirib.**

Rektor qeyd edib ki, tədris proqramları 5 ildən bir yenilənir və bu dövrdə olan dəyişikliklər nəzərə alınır: "Bundan əvvəlki proqram 5 il öncə olan ixtisaslara uyğun təsdiqlənib. 2024-cü ilin dekabrında Nazirlər Kabineti tərəfindən bütün universitetlər, o cümlədən ATU üçün bakalavriat, magistratura və rezidentura pillələrində ixtisasların siyahısı təsdiqlənib. Növbəti 5 il üçün proqramlar hazırlanarkən, ötən müddətdə ATU-da açılan yeni ixtisaslar - fizioterapiya, tibb bacısı, dietologiya kimi ixtisaslar da nəzərə alınır".

Professor G.Gəraybəyli ilk dəfə olaraq proqramların hazırlanmasında təkcə tədris edən tərəfin yox, həm də əmək bazarının nümayəndələrinin iştirak etməsini mühüm yenilik kimi qiymətləndirib. Bu, tədris proqramları tərtib olunarkən əmək bazarının (həkimləri işəgötürən dövlət qurumları və özəl şirkətlər) tələblərini nəzərə almağa imkan verəcək.

Daha sonra iclas iştirakçıları tədris proqramlarının hazırlanması prosesi ilə bağlı fikirlərini bildiriblər. Görüşdə işçi qrupun digər universitetlərdən olan əməkdaşları, klinikaların rəhbərləri və işəgötürənlər iştirak ediblər.

# Professor Gəray Gəraybəyli universitetimizin şəhid ailə üzvləri ilə görüşüb

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi ilə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan əməkdaşlar arasında görüş keçirilib. ATU-nun rektoru, professor Gəray Gəraybəyli görüş iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edib.**



Rektor qeyd edib ki, 30 il həsrəti ilə yaşadığımız torpaqlarımız artıq 5-ci ildir ki, Milli Ordumuzun şücaəti, yenilməzliyi sayəsində öz azadlığına qovuşub. Cənab Prezident İlham Əliyevin illərdir apardığı müdrik siyasət nəticəsində yetişən vətənpərvər neslin nümayəndələri Qarabağın azadlığı yolunda öz canlarından keçiblər. Həmçinin şəhid olan həkimlərimiz sonsuz Vətən sevgisi ilə böyük fədakarlıqlar nümayiş etdiriblər.

Azərbaycan xalqının onları heç vaxt unutmayacağını deyən professor G.Gəraybəyli, dövlətimizin hər zaman şəhid ailə üzvlərinin və qazilərin yanında olduğunu vurğulayıb.

Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov əlavə edib ki, universitetimizin əməkdaşı olan şəhid ailə üzvləri rəhbərliyin qayğısı ilə əhatə olunub və onların sosial problemlərinin həllinə yardım göstərilməsi daim diqqət mərkəzindədir.

Görüşün sonunda rektor G.Gəraybəyli bir daha hər kəsi bayramlar münasibətilə təbrik edib, bütün xalqımıza yalnız xoş günlər nəsib olmasını arzulayıb.

# Şəhid ailəsi üzvü tələbələrə bayram hədiyyələri verilib

**Qarabağ müharibəsi şəhidlərinin universitetimizdə təhsil alan övladları ilə görüş keçirilib. Novruz bayramı münasibətilə təşkil olunan görüşdə ATU-nun rəhbər şəxsləri tələbələri təbrik ediblər.**



Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov Novruzun Azərbaycan xalqının çoxəsrlik tarixində özünəməxsus yeri olan miilli bayram olduğunu bildirib. Qeyd edib ki, bu il Novruz həm də on bir ayın sultanı Ramazanla üst-üstə düşdüyündən, daha əlamətdardır. O, mərhəmət və paylaşma bayramı olan Novruz və müqəddəs Ramazan bayramı münasibətilə hər kəsi təbrik edib.

Görüşdə ATU-nun fakültə dekanları, Qızıl Aypara Cəmiyyətinin universitet üzrə nümayəndəsi, Tibbi və bioloji fizika kafedrasının professoru Hüseyn Abıyev iştirak ediblər.

Sonda tələbələrə bayram münasibətilə hədiyyələr təqdim olunub.

# Rektor əməkdaşları Novruz və Ramazan bayramları münasibətilə təbrik edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli kollektiv üzvləri ilə görüşərək, onları Novruz və qarşıdan gələn Ramazan bayramları münasibətilə təbrik edib.**



Rektor bildirib ki, əsrlərdən bəri yurdumuzda qeyd olunan, baharın gəlişi və təbiətin oyanışını təcəssüm etdirən Novruz bayramı qədim və gözəl ənənələri ilə tanınır. Bu bayram sülh, barışıq, həmrəylik və mehriban qonşuluq dəyərlərini təşviq edir:

"Bu il hamımız baharın Azərbaycan torpağına gəlişini xüsusi sevinc və şövqlə qarşılayırıq. Çünki uzun illər arzuladığımız kimi, nəhayət Novruz bayramını azad Qarabağ torpaqlarında da qeyd edirik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın builki Novruz tonqalını Qarabağda alovlandırması ölkəmiz və xalqımız üçün təntənəli və tarixi hadisədir. Artıq 5 ildir ki, Novruz bayramını ərazi bütövlüyü təmin olunmuş Azərbaycanımızın hər tərəfində qeyd etməyimiz böyük xoşbəxtlikdir. Vətən müharibəsində qazandığımız tarixi zəfəri əbədi qoruyacaq, şəhidlərimizin xatirəsini daim anacaq, qazilərimizin əziyyətini heç vaxt unutmayacaq və onların ailələrinə daim dəstək olacağıq.

Hər birinizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bayram günlərində sizə bahar əhval-ruhiyyəsi, cansağlığı arzulayıram. Eləcə də sizləri İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı və qarşıdan gələn bayramı münasibətilə təbrik edirəm. Hər iki bayram bütün xalqımıza, millətimizə düşərli olsun".

# Tacikistan səfiri ATU-nun qonağı olub



Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonla görüşüb.

Görüş zamanı rektor qonağa son illər ATU-da aparılan islahatlar, yenilənmiş tədris proqramları, tələbələrin asudə vaxtının səmərəli keçirilməsi üçün yaradılan şərait, tədris klinikaları haqqında ətraflı məlumat verib. ATU-nun beynəlxalq əlaqələri haqqında danışarkən, professor G.Gəraybəyli qonşu ölkələrin tibb və təhsil ocaqları ilə əməkdaşlığa böyük diqqət yetirildiyini vurğulayıb.

Azərbaycan Tibb Universiteti ilə tanışlıqdan məmnunluğunu bildirən səfir İ.Abduraxmon Tacikistanın təhsil və səhiyyə sistemlərindən söz açıb. ATU-nun Tacikistanın aparıcı təhsil və tibb ocaqları ilə qurulan əməkdaşlığının hər iki ölkə üçün uğurlu olacağını deyib.

Ortaq layihələrin və digər aktual məsələlərin müzakirə olunduğu görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev də iştirak edib.

# İlaxır çərşənbə münasibətilə kütləvi tədbir keçirilib

**Azərbaycan xalqının qədim və zəngin milli-mənəvi dəyərlərindən biri olan Novruz bayramı ərəfəsində İlaxır çərşənbə münasibətilə təntənəli tədbir keçirilib.**



"Təbib" İdman Klubunun təşəbbüsü ilə universitetimizin kampusunda təşkil olunmuş tədbirdə tələbələrlə yanaşı, klubun sədri Qələndər Aslanov və məşqçi-müəllim heyəti də iştirak edib. Bayram tədbiri xalqımızın qədim ənənələrini özündə əks etdirən çoxsaylı maraqlı elementlərlə yadda qalıb. Tədbirin əvvəlində tələbələr Novruzun rəmzi olan tonqal ətrafında toplaşıblar və İlaxır çərşənbəyə xas olan qədim adət-ənənələri canlandırıblar. Onlar baharın gəlişini tərənnüm edən mahnılar oxuyub, şeirlər deyib, yumurta döyüşdürüb, rəqs ediblər. Tədbirin aparıcıları İlhamə Namazova və Aytac Şükürlü İlaxır çərşənbənin mənası, Novruz bayramının tarixi və onun xalqımız üçün əhəmiyyətindən söz açıblar. Qeyd olunub ki, bu bayram insanları birliyə, həmrəyliyə, mərhəmətə və xeyirxahlığa çağırır. Tədbirdə yerli tələbələrlə yanaşı, əcnəbi tələbələrin də iştirakı bunu bir daha sübut edib. Bayram süfrəsində isə Novruzun vazkeçilməz nemətləri – bayram şirniyyatları təqdim olunub. Səməni, şəkərbura, paxlava, qoğal, eləcə də milli yeməklər süfrəyə xüsusi gözəllik qatıb. Tədbir tələbələrin tonqal üzərindən tullanaraq qədim inancın simvolik mənasını yaşatması mərasimi ilə başa çatıb.

Azərbaycan Tibb Universitetində bu kimi tədbirlərin təşkili tələbələrin milli ruhda tərbiyəsi, dəyərlərimizin qorunması və yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Özbəkistanın Səmərqənd Dövlət Tibb Universitetinin Azərbaycan Tibb Universitetində praktikada olan tələbələri ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüblər.**

# Səmərqənd universiteti ilə əməkdaşlıq əlaqələri güclənir



Görüşdə rektor G.Gəraybəyli universitetin tarixi və fəaliyyəti haqqında qonaq tələbələrə ətraflı məlumat verib. O, universitetlər arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsini yüksək qiymətləndirdiyini bildirib: "Dünyanın müxtəlif ölkələrindən olan tələbələr hər il universitetimizdə praktika keçir, eləcə də alimlər, mütəxəssislər ATU-da qonaq olur. Hazırda Azərbaycan Tibb Universiteti geniş beynəlxalq əlaqələrə malikdir. Biz dünyanın aparıcı universitetləri, bilik mərkəzləri ilə münasibətləri daha da dərinləşdiririk. Bura tələbə və elmi işlərin mübadiləsi, müştərək elmi araşdırmalar, birgə startap ideyaların reallaşdırılması və s. daxildir".

Qeyd edək ki, akademik mobillik proqramı çərçivəsində Səmərqənd universitetinin professor-müəllim və tələbələrdən ibarət nümayəndə heyəti ATU-nun tədris və elmi fəaliyyəti ilə yaxından tanış olub, təcrübə mübadiləsi aparıb, bir sıra mühazirə və seminarlarda, eləcə də klinikalarda keçirilən əməliyyatlarda iştirak edib, treninq mərkəzlərində tədbirlərə qatılıblar.

12 tələbənin daxil olduğu nümayəndə heyətinə Səmərqənd Dövlət Tibb Universitetinin Gənclər və mənəvi-maarifləndirmə işləri üzrə şöbəsinin müdiri Odil Muratov rəhbərlik edib.

Bu cür qarşılıqlı səfərlər universitetlərimiz arasındakı əməkdaşlığın gücləndirilməsinə böyük töhfə verəcək.

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetin 95 illiyi ərəfəsində Xəzər TV-yə geniş müsahibə verib. Həmin müsahibəni kiçik ixtisarla oxuculara təqdim edirik.**




# Həkimlərimizə inanır və güvənirik

## Rektor, professor Gəray Gəraybəyli: Hər gün minlərlə insan müayinə və müalicə üçün həkimə müraciət edir, tibbi yardım alır, əməliyyat olunur, həyata qayıdır

**- Həkim kimdir və həkim olmaq üçün vacib olan nədir? Kimə həkim deyilməlidir?**

- Həkim olmaq üçün təkcə valideynlərin istəyi kifayət deyil. Bəzən son kurslarda tələbələrlə söhbət apararkən hiss olunur ki, bu kifayət qədər ciddi və çətin seçimi özləri etməyiblər. Ata-ananın istəyi ilə həkim olmağa qərar veriblər. Həkim olmaq üçün insanın daxilində bu çətin, mürəkkəb və məsuliyyətli peşəyə bir əminlik lazımdır. Çünki hər bir tarixi mərhələdə həkimlərin yeri xüsusidir. Bu xüsusi yeri qazanmaq üçün isə böyük əziyyətə qatlaşmaq, uzun yol keçmək lazım gəlir. Ona görə də buna hazır olmayanlar ya yarı yoldan dönəcək, ya da sonradan yaxşı həkim ola bilməyib peşəsini dəyişəcək. Amma şükürlər olsun ki, belə hallar çox azdır. Mən bir rektor kimi, tələbələrlə sıx ünsiyyətimə əsaslanıb əminliklə deyə bilərəm ki, onların böyük əksəriyyəti gələcəkdə çox yaxşı həkim olacaqlar.

**- Hazırda Azərbaycan Tibb Universitetində nə qədər tələbənin təhsil alması, yerli və xarici tələbələrin sayı barədə statistik məlumatlar maraqlı olardı.**

- Hazırda universitetimizdə 8 minə yaxın tələbə təhsil alır. Çox qürurverici haldır ki, xarici tələbələrin sayına görə ölkə universitetləri arasında birinci yerdəyik. Universitetimiz öz 95 illik tarixində ilk dəfə olaraq 2022-ci ildə 3 təhsil proqramı üzrə beynəlxalq akkreditasiyadan keçdikdən sonra xarici tələbələrin sayı daha da artdı. Bir çox ölkələrin, xüsusən də qonşu ölkələrin tələbələri universitetimizə daha böyük maraq göstərməyə başladı. Bilirsiniz ki, ayrı-ayrı ölkələrin müxtəlif tələbləri var və bu tələblərdən biri də beynəlxalq akkreditasiyadır. Əgər hazırlıq şöbəsini də saysaq, əcnəbi vətəndaşların sayı 3 minə yaxındır. Onlar 30-dan çox ölkəni təmsil edir. Eyni zamanda, Qoşulma Hərəkatına üzv ölkələrin nümayəndələri dövlətimiz tərəfindən verilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" hesabına təhsil alırlar.

**- Tibb Universitetinin yataqxanaları və digər sosial imkanları tələbələrin ehtiyaclarını qarşılamağa yetərlidirmi?**

- Təəssüf ki, tam yox. Hazırda 4 yataqxanamız fəaliyyətdədir. Qeyd etdiyim kimi, xeyli xarici tələbəmizin olmasına baxmayaraq, hələlik yalnız bir yataqxanamızı onların ixtiyarına verə bilirik. Bundan əlavə, xanım xarici tələbələrin bir qismini yerli tələbələr üçün nəzərdə tutulan qızlar yataqxanasına yerləşdirməli oluruq. Gələcəkdə yeni bir yataqxananın inşasını planlaşdırırıq.

**- Tibb Universitetində verilən 5-6 illik baza təhsili sizcə qənaətbəxşdirmi? Bəzi tələbələr və məzunlar buradakı təhsili vaxt itkisi sayır və düşünür ki, xaricdə daha yaxşı təhsil ala bilərlər. Sizcə, ATU-da verilən təhsillə ölkə səhiyyə sistemi üçün peşəkar kadrlar yetişdirmək mümkündürmü?**

- Xatırladım ki, bu il Tibb Universitetinin 95 illiyini qeyd edirik. Ritorik bir sual ortaya çıxır: bəs bu 95 il ərzində Azərbaycan xalqına tibbi xidməti göstərənlər kimlər idi? Azərbaycan həkimlərinin arasında məşhur professorlarımız, böyük korifeylərimiz harda təhsil alıblar? Cavab üçün müasir dövrə gələk. Dediyim kimi, burada 3 minə yaxın xarici tələbə oxuyur. Sirr deyil ki, qardaş Türkiyədə həm tibb təhsili, həm də səhiyyə sistemi çox güclüdür. Bir çox insanlar təhsil almaq, hətta müalicə üçün Türkiyəni seçir. Türkiyədən olan tələbələrimiz 2 qrupa bölünür. Birincilər öz istəyi ilə universitetimizi seçənlər, ikinci qrup isə Yüksək Öyrətim Kurulu tərəfindən universitetimizə göndərilənlərdir və sayı 100-ə yaxındır. Onlar 3 il baza təhsilini Azərbaycan Tibb Universitetində, qalan 3 ili isə öz ölkələrində keçirlər. Bizimlə tərəfdaş olan ölkələrdə, xüsusilə Türkiyədə ATU-nun nəzəri fənlər üzrə verdiyi təhsili yüksək qiymətləndirirlər. Hazırda universitetimizdə həyata keçirilən islahatlar həm nəzəri, həm də kliniki kafedralarda tədrisin keyfiyyətini daha da artırmaq məqsədi daşıyır. Digər tərəfdən, Azərbaycan vətəndaşları çox vaxt Türkiyəyə, Almaniyaya uzmanlığa üz tuturlar. Ötən il Almaniyanın Manhaym şəhərində azərbaycanlı həkimlərlə keçirilən görüşdə onlara dedim ki, siz burada əlavə 6 il oxumamısız, yalnız imtahan verərək Azərbaycanda aldığınız diplomu təsdiqlətmisiz və dar ixtisaslar üzrə təhsilinizi davam etdirmisiz. Bu faktın özü də bizim verdiyimiz təhsilin səviyyəsini bir daha ortaya qoyur.

Ümumiyyətlə, tibb ən sürətlə inkişaf edən elm sahəsidir. İstər diaqnostika, istər müalicə üsulları, bioloji və mikrobioloji yanaşmalar, eləcə də nəzəriyyələrin yenilənməsi, tədqiqatların aparılması hər zaman təkmilləşdirilməlidir. Ancaq elə məsələlər var ki, qısa müddətdə yeniləmək mümkün deyil. Məsələn, götürək müəllim bazasını. 60-dan artıq kafedramızda 1500-ə yaxın müəllim çalışır. Təəssüf ki, təməl fənlərində onların orta yaşı 60, bəzən isə 65-dən yuxarıdır. Elə ixtisaslar var ki, biz ora yeni kadrlar cəlb etməyə çətinlik çəkirik. Bəzi problemlər isə müəyyən ixtisaslara aid dərsliklərin köhnə olması ilə bağlıdır. Amma hansısa dərsliyi yazmaq üçün yenə də zaman və resurs, kadr lazımdır. Bir çıxış yolu dünyada qəbul olunmuş dərsliklərin Azərbaycan dilinə tərcümə olunmasıdır ki, bu da kifayət qədər çətin prosesdir. Buna da təşəbbüs göstərərək 2 dərsliyi tərcümə etdirmişik. Amma tibbi terminlərə, tibb sahəsinə dərindən bələd olmamaq səbəbilə istədiyimiz kimi alınmayıb. Bütün bunlarla yanaşı, hətta dünyanın ən mükəmməl təhsil proqramını da Azərbaycana gətirsək, onu tədris edən müəllimləri dərhal tapmaq asan deyil.

**- Gəray müəllim, universitetdə təhsilin keyfiyyətini artırmaq üçün son illərdə hansı yeniliklər tətbiq edilib? Beynəlxalq tibbi təhsil standartlarına uyğunlaşmaq üçün hansı işlər görülüb?**

- Biz uzun illər ərzində tibb təhsili proqramlarının, tədris prosesinin təkmilləşdirilməsi istiqamətində, tələbələrin biliyinin qiymətləndirilməsi məsələsində müəyyən addımlar atmışıq. Əvvəl də dediyim kimi, 2022-ci ildə müalicə işi, stomatologiya və əczaçılıq üzrə təhsil proqramlarımız beynəlxalq akkreditasiyadan keçib. Beynəlxalq akkreditasiyanın tələblərinə görə, hər 2,5 ildən bir proqramlar yenilənməlidir. Bundan başqa, 30-dan artıq Türkiyə universiteti ilə ikitərəfli əlaqələrimiz var. Eyni zamanda Almaniya, Macarıstanın universitetləri ilə əməkdaşlıq edirik. İlk növbədə tədris proqramlarını öyrənib öz proqramlarımıza uyğunlaşdırırıq. Tələbələrimizin nəzəri bilikləri həmişə kifayət qədər güclü olub və indi də güclüdür. Ancaq bacarıqlar, praktiki vərdişlər məsələsində bir qədər geri qalırıq. Bunun üçün də müəyyən addımlar atılır. Artıq 3-cü ildir ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında dövlətimiz tərəfindən yaradılmış möhtəşəm bir simulyasiya mərkəzində tələbələrimizə praktiki vərdişlər öyrədilir. Əvvəl yalnız VI kurs tələbələri orada praktiki vərdişlərdən imtahan verib sonra dövlət imtahanlarına buraxılırdısa, artıq 2 ildir ki, V kurslar da pediatriya, daxili xəstəliklər, cərrahiyyə və ginekologiya ixtisasları üzrə orada bilavasitə praktik vərdişlərə yiyələnib imtahan verir.

**- Son vaxtlar gündəm olan bir mövzu da plastik və estetik cərrahiyyə ilə bağlıdır. Səhv etmirəmsə, ölkəmizdə plastik cərrahiyyə ixtisası rezidenturaya 2017-ci ildən daxil edilib və Tədris Cərrahiyyə Klinikasında da plastik cərrahiyyə şöbəsi yaradılıb.**

- Bu məsələ ilə bağlı xüsusi vurğulamaq istərdim ki, plastik cərrahiyyə ilə terapevt, nevroloq, psixiatr, kardioloq və ya anestezioluqun yox, cərrahın məşğul olmasına fərqli yanaşılmalıdır. Ümumi cərrahiyyədə tədris olunan proqramlarda müəyyən mövzular plastik və rekonstruktiv cərrahiyyəyə də aiddir. Ona görə də hansı növ əməliyyatların ümumi cərrahlar tərəfindən də aparıla bilməsi dəqiqləşdirilməlidir. Məsələn, ümumi cərraha icazə verilən abdominal, torakal əməliyyatlar plastik cərrahiyyədən daha çətindir. Abdominal cərrahiyyəni yaxşı bilən ümumi cərrahın hansısa rekonstruktiv əməliyyat etməsi nə böyük problemdir ki? Sadəcə olaraq, müəyyən qurumlar tərəfindən dəqiq kompetensiyalar bölünməlidir. Amma bu o demək deyil ki, rezidenturada plastik cərrahiyyə ixtisasına ehtiyac yoxdur. Bu, daha dar ixtisaslaşmadır. Söhbət ondan gedir ki, əmək bazarında estetik cərrahiyyəyə daha çox tələbat var. Sırf plastik cərrahların hazırlanmasına isə vaxt lazımdır. Ona görə də ümumi cərrahiyyəni bitirən rezidentin icra edə biləcəyi 2-3 plastik əməliyyat seçilməli və o bundan kənara çıxmamalıdır.

**-Fizioterapevt və fizioterapist-reabilitoloq ixtisasları zaman-zaman qarışdırılır. Uzun illərdir ki, fizioterapevt ixtisası ATU-da var. Amma fizioterapist-reabilitoloq ixtisası yeni açılıb və 42 məzununuz var. Bu məzunlara verilən diplomlar hansı statusu əks etdirir? Yəni onlara fizioterapist-reabilitoloq diplomu verilib, yoxsa həkim diplomu?**

- Bu ixtisas üzrə ilk buraxılışımız keçən il olub. Məzunlara fizioterapist-reabilitoloq diplomu verilir. Yenə də qayıdırıq kompetensiyaların bölünməsinə. Dünya səhiyyəsində elə ixtisaslar var ki, həkimlikdən də nüfuzludur və əgər həmin mütəxəssis öz ixtisasını yaxşı bilirsə, həkimdən də çox qazanır. Ona görə də dünya təcrübəsini öyrənərək universitetimizdə 6 il bundan öncə tibb bacılığı və fizioterapist ixtisaslarını açdıq. Bu proqramlar 4 illikdir. Məhz ona görə hesab edirik ki, bu ixtisası bitirən məzunlara tam hüquqlu həkim diplomu vermək düzgün deyil. Əslində fizioterapevt həkim ixtisasıdır. Tələbə 6 il Tibb Universitetində təhsil aldıqdan sonra bu ixtisas üzrə rezidentura qazanır, oxuyur və həkim-fizioterapevt olur. Ancaq 4 illik bakalavriat səviyyəsini bitirən tələbə fizioterapistdir. Hazırda bu ixtisas üzrə magistraturanın yaradılmasını və təkmilləşdirilməsini düşünürük.

**- Xaricdə təhsil almış tanınmış mütəxəssislərimiz bu gün dövlət və özəl klinikalarda fəaliyyət göstərir. Onların müəllim kimi universitetə cəlb edilməsi istiqamətində hansısa işlər görülürmü?**

- Bu məsələdə pedaqoqluq qabiliyyəti də nəzərə alınmalıdır. Elə virtuoz həkimlər tanıyıram ki, tələbələr onlardan şikayət edir. Yaxşı pedaqoq olmadıqlarına görə tələbəyə yanaşmada, tələbə ilə dil tapmaqda çətinlik çəkirlər. Amma əməliyyat otağına girəndə "gözüyumulu" əməliyyat edə bilirlər.

**- Həkim-rezidentlərin dəfələrlə dilə gətirdikləri maaş məsələsinə gələk. Buna da yenidən baxılmalıdırmı?**

- Sizinlə razıyam ki, həkimin maddi rifahı yaxşı olmalıdır. Bu gənclər baza təhsilini bitirmiş insanlardır. Həyatlarının o dövrüdür ki, ailə qurmalıdırlar. Ona görə də maddi təminatları da vacibdir. Ancaq maaşın yüksək və ya aşağı olması onun təhsilə həvəsinin yüksək və ya aşağı olmasını əks etdirmir, əks etdirməməlidir də. Yaxşı mütəxəssis olmaq istəyən oxumalı, xəstə ilə ünsiyyətdə olmalı, müayinələr aparmalıdır. Bütün bunları həyata keçirmək üçün isə klinika tərəfindən ona lazımi şərait yaradılmalıdır. Maaş məsələsi başqa qurumların səlahiyyətindədir.

**- Yaxşı tələbə yetişdirmək üçün yaxşı müəllim, yaxşı müəllim üçün isə yaxşı maaş lazımdır. Bəs müəllimlərin maaşı necədir?**

- Universitetimizdə çalışan müəllimlərin maaşı haqda onların özündən soruşa bilərsiz. Məncə, hamı razıdır və daxili imkanlardan istifadə edərək əməkhaqlarını mütəmadi qaldırırıq. Sonuncu maaş artımı üç ay əvvəl olub.

**- İstərdim elmi tədqiqatlar haqda da məlumat verəsiz. Son illərdə ATU-dan beynəlxalq səviyyədə tanınan, rəğbət qazanan tədqiqatlar çıxırmı?**

- Biz indi müəllimlərimizdən yüksək reytinqli jurnallarda məqalələr çap etdirmələrini də istəyir, eyni zamanda bunun üçün müəyyən məbləğdə qonorar ayırırıq. Əgər müəllim öz tədqiqat işini nüfuzlu jurnalda dərc etdirirsə, universitet tərəfindən kifayət qədər normal mükafat alır ki, bu da əlavə bir stimuldur. Bu istiqamətdə apardığımız işin artıq müsbət nəticələri də var.

**- Bir az da son zamanlar baş verənlərin fonunda səhiyyə sistemində gündəmə gələn neqativ xəbərlərdən danışaq. Sizcə, həkimlərin üzərinə çoxmu gedirik?**

- Məncə, hə. Çünki həkimlərin müsbət fəaliyyəti kifayət qədər işıqlandırılmır. Hər gün Azərbaycanın minlərlə vətəndaşı müayinə və müalicə üçün həkimə müraciət edir, tibbi yardım alır, əməliyyat olunur, həyata qaytarılır. Nədənsə bu barədə çox az danışırıq. Düzdür, neqativ hallar haqqında da danışmaq lazımdır. Amma sensasiya naminə yox, aradan qaldırmaq məqsədilə. Tam səmimi deyirəm, son illər cavanlar arasında həkimlik peşəsinə əvvəlki illərdəki qədər istək yoxdur. Xüsusilə oğlanlar bu sahəyə çox az gəlir. Məsələn, stomatologiya hər zaman oğlanların əksəriyyət təşkil etdiyi fakültə olub. İndi bir qrupda 2 oğlan varsa, qalan 10-u qızlardır. Səbəb də odur ki, oğlanlar maddi vəziyyətlərini daha tez yüksəltmək istəyirlər. Hazırda 2 pilləli tibb təhsili - 6 illik baza, 3-5 illik rezidentura təhsili buna imkan vermir. Ona görə də maddi cəhətdən onların istəyinə daha tez cavab verən istiqamətləri seçirlər.

Bir daha təkrar edirəm, hər sahədə olduğu kimi, səhiyyədə də nöqsanlar aşkarlanmalı, müəyyən bir nəticə çıxarılmalıdır. Amma təəssüf ki, bəzən hansısa "sensasion serial" bir mediadan o birinə ötürülür. Elə fikir yaranır ki, əmək bazarında ən pis işləyən həkimlərdir. Hesab edirəm ki, bu, ədalətsiz yanaşmadır. Biz həkimlərimizə inanır və güvənirik.

Sonda bütün həkimlərimizə demək istərdim ki, harada olurlarsa-olsunlar, doğma universiteti, alma materi heç vaxt unutmasınlar.



# Əczaçılıq fakültəsinin təşəbbüsü ilə ağacəkmə aksiyası baş tutub

**Universitetimizin Əczaçılıq fakültəsinin təşəbbüsü və Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutunun əməkdaşlarının iştirakı ilə ATU-da ağacəkmə aksiyası keçirilib. Mart ayında qeyd olunan iki əhəmiyyətli tədbir - Novruz və Ramazan bayramlarına həsr edilən aksiya zamanı Dendrologiya İnstitutunun yetişdirdiyi bitkilər və ağaclar müxtəlif ərazilərdə əkilib.**

Aksiyanın məqsədi yaşıllıqların artırılması və ekoloji tarazlığın qorunmasını təşviq etməklə ətraf mühitin qorunması, sağlamlaşdırılmasına töhfə vermək, təbiətin mühafizəsi kimi mühüm işə gənc nəslin cəlb edilməsinə nail olmaq, ekoloji istiqamətdə maarifləndirmənin aparılması olub. Aksiyada Dendrologiya İnstitutunun baş direktoru b.ü.f.d., dosent Minarə Həsənovanın rəhbərliyi ilə qurumun əməkdaşları, Azərbaycan Tibb Universitetinin İnzibati-təsərrüfat işləri üzrə prorektoru İlqar Mehrabov, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova və digər rəhbər şəxslər, eləcə də Əczaçılıq fakültəsinin fəal tələbələri iştirak ediblər.

Aksiya zamanı əraziyə Dendrologiya İnstitutundan gətirilmiş 100 ədəd dekorativ ağac tingləri əkilib, onlara aqrotexniki qaydada qulluq göstərilib, həmçinin təmizlik-abadlıq işləri aparılıb.

# Tələbə klublarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzindədir

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) nəzdində fəaliyyət göstərən klubların rəhbər nümayəndələri ilə görüş keçirilib. ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov görüşdə çıxış edərək tələbələrin fəallığını yüksək qiymətləndirib.**



O, gələcək həkimlərin şəxsi inkişafına nail olması və asudə vaxtlarını səmərəli keçirməsi üçün universitetimizdə hər cür şərait yaradıldığını qeyd edib. M.Səfərov tibb tələbələrinin cəmiyyətə töhfə verəcək tədbirlərdə iştirakının zəruriliyini, klub üzvlərinin təşkilati məsələlərin həlli ilə bağlı daim dəstək ala biləcəklərini deyib.

THİK-in sədri Qoşqar İsmayılov universitetin nəzdində mövcud olan klublar, onların fəaliyyəti, vəzifələri və planlar haqqında ətraflı məlumat verərək, rəsm, teatr, ədəbiyyat, debat, psixologiya və digər sahələr üzrə fəaliyyət göstərən klublarda həm yerli, həm də xarici tələbələrin məşğul olduqlarını vurğulayıb.

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova klub rəhbərlərini universitetin sosial işlərində daha aktiv olmağa və tədbirlər keçirməyə dəvət edib. Qeyd olunub ki, tələbələrimiz hər zaman universitetlərarası tədbirlərdə və yarışlarda ATU-nu layiqincə təmsil edirlər.

Görüşdə iştirak edən tələbələr klubların fəaliyyətinin gücləndirilməsi ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

# ATU-nun nümayəndəsi Macarıstan universitetində görüşlər keçirib

## Ölkəmizdə əczaçılıq sahəsinin inkişafı üçün müsbət təcrübələr öyrənilir

**Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli Macarıstanın Peç Universitetinin qonağı olub. Azərbaycan Səhiyyə Nazirliyi və Macarıstanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə baş tutan səfərin məqsədi iki universitet arasında əməkdaşlıq məsələlərini müzakirə etmək, xüsusilə universitetin əczaçılıq şirkətləri ilə əlaqələrini öyrənmək və Azərbaycan reallığında tətbiqini araşdırmaqdan ibarət olub.**



Peç Universiteti 1367-ci ildə Kral I Lüdovik tərəfindən təsis edilib və Macarıstanda ilk, Mərkəzi Avropada isə dördüncü universitet olaraq tarixə düşüb. Səfər zamanı dekan F.Mədətli universitetin rektoru, professor Attila Miseta, Əczaçılıq fakültəsinin dekanı Andras Fittler və "Pannon Pharma" əczaçılıq sənayesi müəssisəsinin direktoru Pallos Jozsef ilə görüşlər keçirib. Müzakirələrin yekunu olaraq Azərbaycan və Macarıstan universitetləri arasında təhsil və elmi əməkdaşlığın inkişafı istiqamətində memorandum imzalanması da daxil olmaqla, əhəmiyyətli addımların atılması qərara alınıb. Bu təşəbbüsün əsas hədəfi kimi tələbə və elmi təcrübə mübadiləsi, həmçinin ixtisaslaşma, doktorantura, ikili diplom və s. nəzərdə tutulub.

Qeyd edək ki, səfər zamanı Peç Universiteti ilə "Pannon Pharma" arasında olan mövcud bilik və təcrübə mübadiləsi, o cümlədən tədris metodikasının öyrənilməsi, bu üsulun Azərbaycan Tibb Universiteti və "Scandens Pharmaceutical" şirkəti arasında tətbiqi də nəzərdə saxlanılıb. Bu məqsədlə səfərdə Azərbaycanın elmi əsaslı "Scandens Pharmaceutical Industrials Ltd". əczaçılıq zavodunun nümayəndələri də iştirak ediblər. Dördtərəfli əməkdaşlıq çərçivəsində elmi-tədqiqat sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, əczaçılıq sənayesində yerli kadr potensialının gücləndirilməsinə töhfə verilməsi istiqamətində müzakirələr aparılıb. Qeyd edək ki, şirkət nümayəndələri Peç Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüş təşkil edərək, onları yerli əczaçılıq sahəsindəki yeniliklər və gələcək imkanlar barədə məlumatlandırıblar. Məqsəd azərbaycanlı tələbələri ölkəmizdə əczaçılıq sahəsində peşəkar fəaliyyətə təşviq etməkdən ibarətdir.

**"Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) klassifikasiyasına əsasən, yeniyetməlik dövrü 10-19 yaş aralığını əhatə edir. Bu dövr insanın uşaqlıqdan böyüklüyə keçdiyi ən mühüm inkişaf mərhələlərindən biri olub, fiziki, psixoloji və sosial dəyişikliklərlə səciyyələnərək gəncin gələcək sağlamlığına, həyat tərzinə və davranışlarına təsir göstərir". Bunları ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva deyib.**

# Yeniyetmələrin sağlamlığı strateji məsələdir

## Dosent Şəhla Balayeva: Bu dövrdə yalnız böyümə və inkişaf baş vermir, həm də sosial kimlik formalaşır



Yeniyetmələrin sağlamlığının daim diqqətdə saxlanılmasının önəmini vurğulayan müsahibimiz bildirib ki, yeniyetmə cəmiyyətin inkişafında mühüm rol oynayan dinamik və enerjili sosial bir qrupdur: "Onlar gələcəyin liderləri, alimləri, sənətkarları və sahibkarlarıdır. Onların sağlam, savadlı və vətənpərvər vətəndaşlar kimi yetişməsi dövlətin prioritet istiqamətlərindən biridir. Lakin yeniyetməlik dövrü yalnız böyümə və inkişaf prosesi deyil, həm də sosial kimliyin formalaşdığı və cəmiyyətə inteqrasiyanın baş verdiyi kritik bir mərhələdir. Müasir dünyada yeniyetmələrin cəmiyyətdəki mövqeyi onların təhsil, səhiyyə, ailə və sosial mühitdə qarşılaşdıqları imkan və çətinliklərdən asılıdır. Təhsil yeniyetmələrin dünyagörüşünü və gələcək perspektivlərini müəyyən edən əsas amillərdən biridir. Güclü təhsil sistemi və keyfiyyətli tədris metodları gənclərin intellektual inkişafına müsbət təsir göstərir. Bununla yanaşı, ailə və sosial mühit yeniyetmənin cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynayır. Valideyn dəstəyi, sağlam dostluq münasibətləri və sosial institutlarla qarşılıqlı əlaqə yeniyetmənin özünəinamını və şəxsiyyətinin formalaşmasını gücləndirir. Yeniyetməlik həyatın sağlam mərhələsi hesab edilsə də, onlar arasında ölüm, xəstəlik və zədələnmələr də kifayət qədərdir. Bunların çoxunun qarşısını almaq və ya müalicə etmək olar. Bu mərhələdə yeniyetmələr özlərinin və başqalarının sağlamlığını qoruya və ya indi və gələcəkdə öz sağlamlıqlarını risk altına ala biləcək qidalanma, fiziki fəaliyyət, zərərli maddə istifadəsi və seksuallıq kimi davranış modelləri inkişaf etdirirlər".

Sözünə davam edən mütəxəssis vurğulayıb ki, fiziki və psixi inkişaf yeniyetməlik dövrünün əsas xüsusiyyətlərindən biridir: "Bu mərhələdə orqanizmdə sürətli dəyişikliklər baş verir və bir sıra amillərin gənclərin sağlamlığına təsiri onların hansı səviyyədə istifadəsindən asılı olaraq müsbət və ya mənfi ola bilər. ÜST-ün məlumatlarına görə, hazırda dünyada hər yeddinci yeniyetmə ən çox depressiya və narahatlıq pozuntuları olmaqla psixi sağlamlıq problemlərindən əziyyət çəkir.

Yeniyetmə sağlamlığının qorunması yalnız xəstəliklərin qarşısının alınması deyil, həm də sağlam həyat tərzinin təşviqi və psixi rifahın dəstəklənməsidir. Səmərəli qidalanma yeniyetmələrin böyüməsi və inkişafı üçün əsas şərtdir. Zülal, vitaminlər, minerallar və faydalı yağlarla zəngin qida rasionu yeniyetmənin orqan və sistemlərinin, sümüklərin inkişafına və immun sisteminin güclənməsinə kömək edir. Karbohidratlar enerji mənbəyi olub, zehni və fiziki fəaliyyət zamanı yüksək iş qabiliyyətini saxlamağa kömək edir. Onlarla daim maarifləndirmə işi aparılmalı, fast-food, qazlı içkilər və şəkərli qidaların çox qəbulunun piylənmə, şəkərli diabet və ürək-damar xəstəlikləri riskini artırması haqda məlumat verilməlidir".

Başqa bir nüansa toxunan kafedra müdirinin sözlərinə görə, müxtəlif kompüter texnologiyalarının və smartfonların həyatımıza daxil olması və onlardan həddindən artıq istifadə fiziki aktivliyin azalmasına səbəb olur. ÜST-ün tövsiyəsinə əsasən, yeniyetmələr gündə ən azı 60 dəqiqə orta və yüksək intensivlikli fiziki fəaliyyətlə məşğul olmalıdırlar: "Bu onların ürək-damar sağlamlığını, əzələ gücünü və ümumi fiziki vəziyyətini yaxşılaşdırır. İdman, həmçinin stressi azaltmağa və özünəinamı artırmağa kömək edir. Psixi sağlamlıq yeniyetmələr arasında depressiya, davranış pozuntuları, narahatlıq və digər problemləri aradan qaldırır. ÜST-ün verdiyi məlumata görə, 10-19 yaşlı yeniyetmələrin 13%-dən çoxu diaqnoz qoyulmuş psixi pozuntularla yaşayır ki, bunun da təxminən 40%-i narahatlıq və depressiyadır. Bu dövrdə gənclərin emosional dəstəklə təmin edilməsi, onların stressə davamlılıq bacarıqlarının inkişafı çox vacibdir".

Sonda Ş.Balayeva onu da qeyd edib ki, dövlətimiz yeniyetmələrin sağlamlıq, təhsil, sosial rifah və hüquqlarının qorunması istiqamətində ardıcıl siyasət həyata keçirir və bu sahədə genişmiqyaslı proqramlar icra olunur. Eləcə də onların sağlam böyüməsi üçün sağlamlıq və gənclik mahiyyətli bir çox layihələr hazırlanıb, idman və psixoloji dəstək mərkəzləri yaradılıb.

# İctimai səhiyyə fakültəsində tələbə elmi konfranslarına start verilib

## Dekan Qalina Qəniyeva: Ötən il 80 elmi iş təqdim olunmuşdusa, bu il həmin göstərici 101-ə çatıb

**Martın 12-də ATU-nun İctimai səhiyyə fakültəsi Tələbə Elmi Cəmiyyətinin 48-ci konfransı öz işinə başlayıb. "Konstitusiya və suverenlik ili"nə həsr olunan, "Elm və innovasiya" adı altında keçirilən konfransı fakültənin dekanı, dosent Qalina Qəniyeva açaraq, yaradılan şəraitə görə universitet rəhbərliyinə, şəxsən rektor Gəray Gəraybəyliyə fakültə kollektivi adından təşəkkürünü bildirib.**

O, fakültədə TEC-ə cəlb olunan tələbələrin sayının ildən-ilə artdığını, keçən il 80 elmi işin təqdim olunduğunu, bu il isə həmin göstəricinin 101-ə çatdığını söyləyib. Konfransın təşkilində əməyi keçən kafedra müəllimlərinin, fakültə TEC-in sədri Fərəh Baxışlının fəaliyyətini xüsusi qeyd edən Q.Qəniyeva, aktiv tələbələrdən Fatimə Nuriyeva, Xanım Yusifli, Ruxsarə Muradova, Fatimə Səfərova, Aydan İbrahimli, Təranə Kazımova, Yusif Tahirli, Fateh Əsədbəyli, Züleyxa Nəbiyeva, Günel Sadıqova və Aytac Məmmədovanın adlarını səsləndirərək, bütün tədqiqatçı tələbələrə uğurlar arzulayıb.



Tədbirin açılışında çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan ilk növbədə konfrans iştirakçılarına rektor, professor Gəray Gəraybəylinin salamlarını və təbriklərini çatdırıb. ATU-da tələbə elmi cəmiyyətlərinin işinə xüsusi önəm verildiyini, istedadlı tələbələrin elmi işə cəlb olunmasının çox vacib məsələlərdən biri olduğunu vurğulayan prorektor qeyd edib ki, burada əyləşən müəllimlərin əksəriyyəti Tələbə Elmi Cəmiyyətindən başlanan bir yolla irəliləyib: "Mən I kursda oxuyarkən Tələbə Elmi Cəmiyyətində professor Vaqif Şadlinskinin rəhbərliyi ilə işlədiyim mövzunu, həmin məruzəni, həmin günü indiyəcən yaxşı xatırlayıram. Düşünürəm ki, belə tədbirlər sizlərin gələcəkdə mütəxəssis kimi yetişməyinizlə yanaşı, bir araşdırmaçı, alim, tədqiqatçı kimi uğur qazanmağınızda da xüsusi rol oynayacaq. Texnologiyaların günü-gündən müasirləşməsi bizim dünya elminə inteqrasiya etməyimizə imkan yaradır. Eyni zamanda müasir innovativ metodlardan yetərincə yararlanırıq. Bütün bunlar hər birimizin, xüsusən səhiyyə işçilərinin qarşısında çox böyük tələblər qoyur. İnanıram ki, gələcək tədqiqatçılarımız beynəlxalq səviyyəli nəticələr əldə etmək gücündədir. Bu yolda hər birinizə uğurlar arzulayıram. Mənə elə gəlir ki, həyəcanlı olmalarına baxmayaraq, tələbələrin gözlərindəki bu ümid işığı onları uğura aparan əsas motivasiyalardan biridir".

TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov çıxışında bu konfransı bir bayram günü kimi səciyyələndirərək, fakültənin professor-müəllim heyətini və tələbələrini təbrik edib. Universitetimizdə sağlam bir mühitin yaradıldığını, məhz bu baxımdan Tələbə Elmi Cəmiyyətinə müraciətlərin ildən-ilə artdığını deyən M.Həsənov bu göstəriciləri universitet rəhbərliyinin tələbələrin elmi fəaliyyətinə göstərdiyi diqqət və qayğının nəticəsi kimi dəyərləndirib: "Tələbələrimiz hörmətli rektorumuzun dəstəyi ilə həm ölkə daxilində, həm də ölkə xaricindəki beynəlxalq konfranslarda təmsil olunurlar. Bu gün İctimai səhiyyə fakültəsində start götürən tələbə elmi konfransları daha mötəbər beynəlxalq tədbirlərdə iştirakımıza xüsusi stimul verir. Yeri gəlmişkən diqqətinizə çatdırım ki, Gəray müəllimin rəhbərliyi ilə universitetimiz böyük bir elmi festivala hazırlaşır.



Hər fakültədən obyektiv olaraq seçilmiş ən yaxşı məruzələr festivala təqdim ediləcək və münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilən məruzələrin tezisləri festivalın materiallar toplusunda çap olunacaq".

Elmi-tədqiqat işləri ilə bağlı əsas hədəflərdən danışan TEC-in rəhbəri bildirib ki, başlıca məqsədlərimizdən biri də uğurlu nəticə göstərmiş tələbələrimizin məqalələrinin yüksək reytinqli jurnallarda nəşrinə nail olmaqdır. Bu istiqamətdə müəyyən addımların atıldığına, tələbələrlə işləyən müəllimlərin fəaliyyətinin qiymətləndirilməsinin vacibliyinə də diqqət çəkən M.Həsənov bu günkü konfransda da uğurlu nəticələrin alınacağına əminliyini vurğulayıb.

Fakültə TEC-in elmi rəhbəri Fərəh Baxışlı konfransın mövzusunun təsadüfən seçilmədiyini, hər zaman tələbələrdə Vətənə sevgi, vətənpərvərlik hissinin aşılanmasına xüsusi önəm verildiyini diqqətə çatdırıb. Konfransda fərqli, ən innovativ düşüncəyə malik tələbələrin tədqiqat işlərinin təqdim ediləcəyini deyib.

Tələbə Elmi Cəmiyyətinin sədri Fatimə Nuriyeva konfransın əsas məqsədindən söz açaraq, yeni ideyalara daha çox innovativ yanaşmanın təqdim ediləcəyini, müxtəlif bölmələr üzrə tələbə məruzələrinin dinləniləcəyini və geniş müzakirələr aparılacağını bildirib.

Bundan sonra konfrans öz işini Mikrobiologiya, Epidemiologiya, Ağciyər xəstəlikləri və Yoluxucu xəstəliklər bölmələri üzrə davam etdirib. Martın 13-də İctimai sağlamlıq, Biokimya və Fizioterapiya bölmələri üzrə məruzələr təqdim olunub, 14-də isə tələbə və müəllimlərin mükafatlandırılması mərasimi ilə konfrans öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Vərəmdən heç kim sığortalanmayıb

## Rafiq Bayramov: Xəstəliyini hamıdan gizlətməyə çalışanlar bilməlidir ki, vərəm tam müalicə olunur

**Hər il martın 24-ü Ümumdünya Vərəmlə Mübarizə Günü kimi qeyd olunur. Bununla əlaqədar Azərbaycan Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramovun fikirlərini öyrəndik.**



Həmsöhbətimiz bildirdi ki, vərəm insanlar arasında ən geniş yayılmış xəstəliklərdən biridir: "Vərəm xəstəliyinin yaşının bəşəriyyətin yaşı ilə eyni olduğunu söyləsək, yanılmarıq. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, yoluxucu xəstəliklər arasında vərəm xəstəliyi ölüm göstəricisinə görə "liderliyini" qoruyub saxlamaqdadır. Hazırda ən asan müalicə olunan vərəm prosesinin müalicəsi üçün minimum 6-8 ay ərzində ən azı 4 vərəm əleyhinə dərmanın birgə istifadəsi tələb olunur. Buna səbəb vərəm mikrobakteriyalarının dəyişkən, müalicəyə çətin tabe olmasıdır".

R.Bayramov təəssüflə qeyd etdi ki, son illər dünyada, o cümlədən ölkəmizdə dərmanlara rezistent deyilən vərəmə rastgəlmə tezliyi artır: "Bunun isə iki forması var: birincili və ikincili rezistentlik formaları. Birincili rezistentlik odur ki, insan xəstəliyə dərmanlara rezistent ştamlar, mikroblar və ya törədicilərlə yoluxub xəstələnir. Yəni kimdən yoluxubsa, həmin xəstədə artıq dərmana rezistent forma olub. Ona görə də yeni xəstələnən adamlarda dərmana davamlılıq yaranır. İkincili rezistentlik odur ki, xəstə dərmana həssas mikrobakteriyalar, vərəm çöpləri ilə yoluxub xəstələnir, amma qeyri-düzgün, natamam müalicə nəticəsində onda rezistentlik formalaşır".

Onun sözlərinə görə, öz növbəsində birincili resistentlik formasının da sayı az deyil ki, bu da ətraf mühitdə rezistent xəstələrin sayının çoxluğu, həmin insanlardan yoluxanlardan birincili rezistent xəstələrin yaranması ilə izah olunur: "Adətən "vərəm xəstəsi" dedikdə, yaşayış şəraiti yaxşı olmayan, tüfeyli həyat tərzi keçirən, əyyaşlar, narkomanlar və bu kimi sosial qrupdan olanlar düşünülür. Amma belə deyil. Faktlar göstərir ki, heç kəs bu xəstəlikdən sığortalanmayıb.

Tibbin hər sahəsində olduğu kimi, vərəmlə mübarizədə də yeniliklər var. ÜST illərdir əsas qlobal problem kimi, vərəm infeksiyasını diqqət mərkəzində saxlayır. Son məlumatlara görə, hazırda infeksiya əleyhinə 10-a yaxın vaksin üzərində iş gedir. Ötən ilin məlumatına görə, daha effektli olan 3 vaksin artıq təcrübə mərhələsini keçib və onlardan biri yaxın zamanda kütləvi istifadəyə buraxılacaq.

Artıq 15 ildir ki, vərəm əleyhinə olan dərmanların apteklərdə satışına rəsmən qadağa qoyulub. Ona görə belə xəstələr aşkar olunan kimi, yaşadığı ərazi üzrə vərəm əleyhinə dispanserlərdə və ya vərəm kabinetlərində qeydiyyata götürülür. Xəstələr mütəmadi olaraq təyin olunan dərmanları dispanser və ya kabinetlərdə çalışan sahə həkimlərindən alır. Onlar tam şəkildə dərmanlarla təchiz olunurlar".

Kafedra müdiri əlavə etdi ki, bəzi xəstələr qeydiyyata düşüb, müalicə almaq istəmirlər. Çünki xəstəlik zamanı onlarda çox ciddi sinir pozğunluqları olur. Dünyanın hər yerində olduğu kimi, bizdə də vərəm xəstələrinə qarşı olan münasibət birmənalı deyil. Bu səbəbdən də vərəm xəstələri, əksər hallarda öz xəstəliklərini ətrafdan gizlətməyə çalışır: "Bu cür halların qarşısını almaq üçün maarifləndirmə tədbirləri gücləndirilməlidir ki, vərəm olan xəstələr özlərini cəmiyyətdən tədric hiss etməsinlər. Onlar bilməlidirlər ki, bu xəstəlik müalicə olunub tam sağalan xəstəlikdir.

Aparılan mübarizənin effektiv olması üçün ilk növbədə vərəm ocaqları aşkarlanmalı, onun ötürülmə yolları müəyyən edilməli, yeni yoluxmaların qarşısı alınmalıdır. Ölkəmizdə istər Səhiyyə Nazirliyi, istərsə də TƏBİB tərəfindən vərəmlə mübarizəyə kifayət qədər dəstək var. Hər cür müayinələr aparmaq imkanlarına malikik".

Mütəxəssis qeyd etdi ki, kimsə üç həftədən artıq öskürürsə, hər ehtimala qarşı onun bəlgəminin vərəm çöpünə görə müayinəsi məsləhətdir: "Hansısa şəxsdə axşamüstü zəif subfebril hərarət, ümumi zəiflik əlamətləri olarsa, gecənin ikinci yarısı, səhərə yaxın kürəyi, ənsə nahiyəsi tərləyərsə, lokalizasiyalı vərəm prosesinə şübhə yaranır. Onlar da özlərini həkimə yoxlatmalıdır".

R.Bayramov, rəhbərlik etdiyi kafedranın vərəmlə mübarizə sahəsində fəaliyyətindən də söhbət açdı. Bildirdi ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu ölkəmizdə vərəmlə mübarizəyə rəhbərlik edən bir müəssisə olsa da, Azərbaycan Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrası da ağciyər xəstəliklərinin aşkar olunmasında yetərincə fəaliyyət göstərir: "Vərəmlə mübarizə tədbirlərində kafedramız həmişə olduğu kimi, yenə də aktivdir. Belə ki, istər həkimlərin, istər digər tibb personalının maarifləndirilməsində, seminarların keçirilməsində, mətbuatda ictimaiyyət üçün maarifləndirici müsahibə və məlumatların dərc olunmasında yaxından iştirak edir. Gələcək həkimlərimiz olan tələbələrimizin vərəm və ağciyər vəreminin ayrı-ayrı formaları haqqında lazım olan nəzəri və təcrübi biliklərə yiyələnməsindən ötrü əlimizdən gələni edirik. Tələbələrimizə bütün ağciyər xəstəlikləri, o cümlədən ağciyər vərəmi olan xəstələrin müayinəsində bilavasitə iştirak etmək şəraiti yaradılır. Kafedra əməkdaşları isə xəstəliyin aşkarlanması, çətin diaqnostika olunan, müalicəsi daha problemli vərəm xəstələrinin müalicəsi ilə bağlı mütəmadi məsləhətləşmələr, konsiliumlarda iştirak edirlər".

**Azərbaycan tibb elminə ağır itki üz verib. Ömrünü elmə və təbabətə həsr etmiş Azərbaycan Respublikasının əməkdar həkimi, tibb elmləri doktoru, professor Tamfira Tamerlan qızı Əliyeva 2025-ci il mart ayının 27-də dünyasını dəyişib.**

## Görkəmli alimin işıqlı xatirəsi qəlblərdə yaşayacaq



T.Əliyeva 1951-ci il iyunun 18-də Bakı şəhərində, əməkdar elm xadimi, professor Tamerlan Əliyevin ailəsində anadan olub. Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1985-ci ildə namizədlik, 2015-cı ildə isə doktorluq dissertasiyası müdafiə edərək alimlik elmi dərəcəsi alıb.

Tamfira xanım 30 ildən artıq Azərbaycan Tibb Universitetində çalışıb, 150-dən çox elmi əsərin, o cümlədən dərslik və monoqrafiyaların müəllifi olub. Onun rəhbərliyi altında tibb üzrə alimlər yetişib.

2024-cü ildə nəşr olunan "Tireoidologiya" fundamental dərs vəsaiti onun son böyük elmi əsəridir.

Azərbaycan endokrinologiya məktəbinin davamçısı olan Tamfira xanım "Əməkdar həkim" fəxri adına layiq görülüb və elmi fəaliyyətinə görə bir çox fəxri fərmanlarla təltif edilib.

Yüksək insani xüsusiyyətləri və işgüzarlığı ilə kollektivin dərin hörmətini qazanmış Tamfira xanımın işıqlı xatirəsi həmkarlarının, tələbələrinin, onu tanıyan hər kəsin qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Tibb Universitetinin rektorluğu**
**Həmkarlar İttifaqı Komitəsi**
**Daxili xəstəliklər kafedrası**

# Terapevtik stomatologiya kafedrası 70 illik yubileyə hazırlaşır

## Dosent Vaqif Həsənov: Kafedramızın elmi və praktik fəaliyyət potensialı ən aktual problemləri uğurla həll etməyimizə imkan verir

**"Əsası 1956-cı ildə qoyulan Terapevtik stomatologiya kafedrası ATU-nun stomatoloji profilli aparıcı ixtisas kafedralarından biri kimi fəaliyyət göstərir. Kafedranın fəaliyyət istiqaməti bakalavr səviyyəli ali tibb diplomuna iddialı olan tələbələr və həkim-mütəxəssislərin yetişdirilməsindən, həmçinin aktual elmi tədqiqatlar aparılması və əhaliyə ixtisaslı stomatoloji xidmətlərin göstərilməsindən ibarətdir". Bunu kafedra müdiri, dosent Vaqif Həsənov kafedranın inkişaf tarixindən bəhs edərkən söyləyib.**

Yarandığı vaxtdan 1968-ci ilədək dosent Ə.Həsənzadə, 1969-85-ci illərdə dosent R.Mirzəyev, 1986-2010-cu illərdə professor Ç.Paşayev 2010-12-ci illərdə dosent R.Qasımov və 2013-23-cü illərdə professor A. Paşayev kafedraya rəhbərlik ediblər. Vaqif müəllim söhbətimizə ondan başladı ki, 1990-cı illərdə sovet ittifaqı dağılandan sonra Azərbaycanda böyük elmi potensial və kadr ordusunun olmasına baxmayaraq, əhaliyə stomatoloji xidmətin keyfiyyətcə inkişaf etmiş ölkələrdən geri qaldığı məlum olub: "1991-ci ildə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra stomatologiya sahəsində də baxış dəyişməyə və qabaqcıl ölkələrin təcrübələrindən istifadə edilməyə başladı. Müasir texnologiyaların gətirilməsi ilə yanaşı, kadrların hazırlanması və təcrübə mübadiləsi istiqamətində də yeni-yeni əlaqələr quruldu.

Hazırda kafedramız öz gündəlik fəaliyyətini tibb təhsili, elmi tədqiqatlar və səhiyyə xidmətləri sahəsində davamlı tərəqqini təmin etmək istiqamətində ATU-nun qəbul etdiyi 2023/2030-cu illər üçün inkişaf strategiyası planına uyğun olaraq qurur və prioritet hədəflərini müəyyənləşdirib".

Sözünə davam edən V.Həsənov məlumat verib ki, kafedrada tədris prosesi 3-ü professor, 11-i dosent olm aqla, 3 nəfər elmlər doktoru və 21 nəfər tibb üzrə fəlsəfə doktoru tərəfindən həyata keçirilir: "Hazırkı tədris proqramına əsasən, ağız və diş xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası haqqında əsaslı biliklər tədris edilir. Kafedramızın əməkdaşları müxtəlif elmi istiqamətlər üzrə araşdırmalar da aparır, nəticələrini yerli və beynəlxalq



elmi jurnal və elektron resurslarda nəşr etdirirlər. Onlar son innovativ tədris metodlarını öyrənmək və öyrətmək məqsədilə çoxsaylı mühazirə, konfrans və master- klaslara qatılır. Kafedramız bir sıra inkişaf etmiş universitetlərlə elm və tədris sahəsində əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr çərçivəsində vaxtaşırı müəllim, rezident və tələbə mübadilələri həyata keçirilir.

Məlumdur ki, tədrisdə keyfiyyətin yüksəldilməsinin əsasında yüksək ixtisaslı professor-müəllim heyəti dayanır. Odur ki, kafedramızın akademik tərkibinin yüksək nəzəri-praktik biliklərə malik olması, tədrisə məsuliyyətlə yanaşmaları hər zamankı kimi vacib məsələlərdir. Deyilənləri təmin etmək məqsədilə professor-müəllim heyətinin daim öz peşə səviyyələrini yüksəltməsi diqqətdə saxlanılır və bunun üçün müvafiq şərait yaradılır. Yaxın keçmişdə 1 nəfər əməkdaşımız tibb elmləri doktoru, 1 əməkdaşımız isə t.ü.f.d. dissertasiyasını uğurla müdafiə edərək AAK-na təsdiq üçün təqdim ediblər. Daha 2 əməkdaşımız isə müdafiəyə çıxmaq ərəfəsindədir. Çalışırıq ki, qarşıdakı illərdə elmi-tədqiqat işlərinin statistikası genişlənsin və bu işlərin nəticələri daha yüksək reytinqli (Q1-Q4) jurnallarda yer alsın".

Müsahibimizin sözlərinə görə, kafedrada yerinə yetirilən işlərin nəticələrinin beynəlxalq konfrans və seminarlarda müzakirəyə çıxarılması, beynəlxalq lektor və moderatorların sayının artırılması əsas hədəflərdəndir. ATU-nun ən yaxın illərdə dünyanın ən nüfuzlu 1000 universiteti sırasına daxil olmaq kimi hədəfi var. Kafedra elmi, tədris və praktik fəaliyyəti ilə bu işə öz töhfəsini verməkdədir.

Kafedranın tədris və klinik bazasının ildən-ilə inkişaf etdiyini vurğulayan V.Həsənov əlavə edib ki, tələbə və rezidentlər müasir tələblərə cavab verən laboratoriya və klinik otaqlarda ağız və diş problemlərinin modern həlli yollarını öyrənirlər: "Praktik səhiyyədə kafedramızın əməkdaşları kifayət qədər aktivdir. Onlar həm birbaşa müraciət edən, həm də çətin diaqnoz və müalicə səbəbindən digər klinikalardan bizə yönləndirilən xəstələrə yardım edirlər. Bir sözlə, kafedramızın fəaliyyət planındakı prioritetlər işlənib hazırlanarkən yuxarıda qeyd etdiyim, universitet rəhbərliyi tərəfindən müəyyənləşdirilmiş yol xəritəsi rəhbər tutulur".

Vaqif müəllim bildirib ki, kafedrada "Diş müalicəsinin əsasları", "Dişin sərt toxuma xəstəlikləri", "Restavrativ diş müalicəsi", "Endodontiya", "Parodontologiya" və "Ağızın selikli qişa xəstəlikləri" fənləri 8 semestr müddətində, 3 dildə tədris olunur. İnkişaf etmiş ölkələrin əksər universitetlərində isə bu fənlər ayrı-ayrı kafedralarda tədris edilir: "Terapevtik stomatologiya kafedrasında tədris prosesi tələbələrə praktik vərdişləri aşılamaqdan keçir. Bu məqsədlə preklinik və tədris-klinik mərkəzinin rolu əvəzsizdir. Lakin qeyd etməliyəm ki, orda yaratdığımız şəraitdə çatışmazlıqlar da mövcuddur. Universitetin və stomatoloji klinikanın rəhbərliyi bu şəraitin yaxşılaşdırılması üçün tədbirlər planı hazırlayıb.

Fəaliyyət istiqamətlərimizdən biri də rezidentlərin hazırlanmasıdır. Kafedramıza hazırda 3 ixtisas üzrə rezidentlər qəbul edilir. Onların daha yaxşı mütəxəssislər kimi hazırlanması üçün ayrıca klinik otaqların ayrılması ilə bağlı planımız var. Artıq stomatoloji klinikanın rəhbərliyi tərəfindən müasir konfrans və seminar otaqları hazırlanıb. Klinik kafedra olaraq fəaliyyətimizin əsas istiqamətlərindən biri də müalicə işindən ibarətdir. Əməkdaşlarımız yüksək ixtisaslı mütəxəssislər olaraq klinik bazamızda gündəlik müalicə-konsultativ fəaliyyət həyata keçirir. Bu gün kafedramızın elmi və praktik fəaliyyət potensialı stomatologiyanın ən aktual problemlərini uğurla həll etməyimizə imkan verir".

Kafedrada Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində ümidverici nəticələrin olduğu barədə də danışan V.Həsənov bildirib ki, ötən tədris ilində 11 tələbənin elmi işi çap olunub və çıxışları I və III yerlərə layiq görülüb. Bu tədris ilində isə daha 7 tələbə TEC-də çıxış etmək üçün elmi araşdırmalarını davam etdirir.

**M.ƏLƏKBƏRLİ**

# Bel ağrıları hamiləlik zamanı ən çox rast gəlinən problemdir



## Fizioterapevt-reabilitoloq Maral Dadaşova səbəbləri və çıxış yollarını açıqlayır

**Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti Maral Dadaşova hamiləlik zamanı bel ağrılarının səbəbləri, fəsadları və reabilitasiya üsullarının effektivliyi barədə "Təbib" qəzetinə açıqlama verib.**

Hamiləliyin qadın orqanizminin əhəmiyyətli dəyişikliklərə məruz qaldığı dövr olduğunu deyən həkim bildirib ki, gələcək anaların ən çox rast gəlinən şikayətlərdən biri bel ağrılarıdır: "Bu şikayətlər cüzi diskomfort hissindən başlamış, gündəlik həyat keyfiyyətinə mənfi təsir edən güclü ağrılara kimi dəyişə bilir. Hamiləlik zamanı yaranan və güclənən bel ağrılarının əsas səbəbləri fizioloji dəyişikliklərə aid olan hormonal disbalans, uşaqlığın ölçülərinin böyüməsi, qamətin dəyişməsi, bədən kütləsinin artması, onurğanın osteoxondrozu və digər degenerativ xəstəliklərinin müvafiq dövrdə kəskinləşməsi, eləcə də psixoemosional faktorlardır".

Fizioterapevt-reabilitoloq M.Dadaşova onu da diqqətə çatdırıb ki, hamiləlik zamanı qanda relaksin hormonunun səviyyəsinin yüksəlməsi çanaq nahiyəsinin oynaq və bağ aparatının zəifləməsinə və boşalmasına səbəb olur ki, bu da öz növbəsində orqanizmin doğum prosesinə hazırlanmasına kömək edir, lakin digər tərəfdən onurğa sütununun stabilliyinin zəifləməsinə və nəticədə ağrılara səbəb olur: "Uşaqlığın ölçülərinin böyüməsi bədənin ağırlıq mərkəzinin yerdəyişməsinə səbəb olur ki, bu da bel nahiyəsinə düşən yüklənmənin qeyri-bərabər paylanmasına və ağrılara gətirib çıxarır. Böyüyən qarın kompensator olaraq qamət pozulmasına və bel, boyun fəqərələri səviyyəsində əzələ qruplarının hədsiz gərginləşməsinə səbəb olur.

Bədən çəkisinin hamiləliyin son aylarına yaxın daha çox artması öz növbəsində onurğaya və oynaqlara düşən ağırlığı artırır, nəticədə bel-oma, bud-çanaq və boyun nahiyələrində əziyyətverici ağrılar yaranır. Həmçinin stress, həyəcan və emosional yüklənmə də bel ağrılarına səbəb ola bilir. Xroniki stress və əzələlərdə artmış gərginlik boyun, bel və çanaqda qapalı zəncir kimi davamlı ağrı və diskomforta gətirib çıxarır. Lokalizasiyasına, intensivliyinə və xarakterinə görə ağrılar küt, dartıcı, keyimə və kəskin iynələmə tipli ola bilir".

Hamiləliyin planlanmasının vacibliyinə də toxunan müsahibimiz ağrı və diskomfortun olmaması üçün hamilə qadının nə etməli olduğuna da aydınlıq gətirib. Qeyd edib ki, bu zaman ilk növbədə fizioterapevt-reabilitoloq həkim tərəfindən fiziki aktivlik və müalicəvi idman hərəkətlərinin individual olaraq seçilməsi və davamlı tətbiqi mütləqdir. Belə ki, hidroterapiya və üzgüçülük vasitəsi ilə əlavə yüklənmə olmadan əzələ və oynaqların istirahəti, stabilləşməsi, artan bədən kütləsinin müvafiq nahiyələrə neqativ təsirinin azaldılmasına nail olmaq mümkündür: "Hamilələr üçün pilates və yoqa zamanı əzələlər və bağlarda gərmə və gücləndirmənin növbələnməsi, sinxron tənəffüs hərəkətləri qan dövranının bərabər intensivliklə təminatı və stressin azaldılmasına kömək edir. Dəstəkləyici korset, bandaj və ortopedik ləvazimatlar bədənin düzgün duruşunu təmin edərək dəyişən ağırlıq mərkəzini yumşaq korreksiya edir. Termoterapiya ilə mütəxəssis nəzarəti altında isti və soyuq tətbiq etməklə kəskin ağrıların lokal olaraq azaldılması və spazmların aradan qaldırılmasında əhəmiyyətli nəticə alınır. Hamiləlik zamanı qadın davamlı statik pozadan çəkinməli və tez-tez bədən vəziyyətini dəyişməyə çalışmalıdır. Rahat çarpayı qarın və bel nahiyələrində balış dəstəyi ilə keyfiyyətli yuxunun və bel ağrılarının olmamasına və ya olan ağrının zəifləməsinə kömək edir".

Onun sözlərinə görə, əgər istirahətdən sonra ağrılar azalmırsa, intensivliyi artırsa, yanaşı olaraq artmış ödem, hissiyyatın pozulması, sidik ifrazının təhrif olması nəzərə çarpırsa, ciddi fəsadlardan (erkən doğum, infeksion xəstəlik, böyrək patologiyaları) qorunmaq üçün təcili həkimə müraciət etmək lazımdır.

Bel ağrıları hamiləlik zamanı ən çox rast gəlinən problemdir. Hamiləliyin planlanması və bu prosesə hazırlıq dövrünün olması qadının doğum gününə qədər düzgün seçilmiş hərəkətləri və aktivliyini təmin etməsi ağrıların, tez yorulmanın, halsızlığın və artan diskomfortun onun həyat keyfiyyətinə neqativ təsirini minimuma endirir. Nəticədə qadın hamiləlik dövrünü rahat, ağrısız və pozitiv keçirir.

**Mart ayı çoxsaylı mieloma xəstəliyi ilə bağlı maarifləndirmə ayı kimi qeyd olunur. Məlumat üçün bildirək ki, o, dünyanın ən təhlükəli xəstəliklərdən biri sayılır. Bu, limfositlərin erkən sələfləri səviyyəsində olan hüceyrələrin şiş xəstəliyidir. Xəstəliyin əlamətləri, profilaktikası və müalicəsi ilə bağlı ATU-nun I Daxili xəstəliklər kafedrasının əməkdaşı, həkim-hematoloq Şəhla Şabanova qəzetimizə məlumat verib.**

# Çoxsaylı mieloma - ən təhlükəli xəstəliklərdən biri

## Şəhla Şabanova bu sahədə böyük elmi irəliləyiş, innovativ müalicə metodları olduğunu deyir



O bildirib ki, çoxsaylı mieloma xəstəliyi tək bir şiş kimi deyil, sümük iliyində anormal plazma hüceyrələrinin yığılması və qanda zülalın anormal miqdarda olması şəklində özünü büruzə verir: "Bu zaman xəstə sümüklərdə ağrı, halsızlıq, ürəkbulanma, tez yorulma halları ilə üzləşir. Həmçinin xəstədə patoloji sınıqlar, arıqlama, infeksiyalara tez-tez yoluxma müşahidə olunur. Azacıq hərəkət zamanı belə sümüklər sınır. Gecikmiş formalarda böyrək şikayətləri, Oliqo-Anuriya hallarına da (sidiyə çıxmanın zəifləməsi və ya bəzən tamamən itməsi) rast gəlinir. Başlanğıc mərhələdə adi qan analizinin nəticələrində anemiya, həm də yüksək EÇS dəyəri aşkarlanarsa, çoxsaylı mieloma xəstəliyindən şübhələnmək olar. Bu xəstəliyin yaranma səbəbi hələ tam bəlli olmasa da, belə qəbul olunub ki, kimyəvi maddələr, neft və radiasiyaya məruz qalmaq xəstəliyi yaradan amillər sırasındadır. Çoxsaylı mieloma hüceyrələri sümük iliyində yaranıb artdığı üçün xərçəng hüceyrələrinin sağlam sümük hüceyrələrinin istilasına səbəb olur".

Onun sözlərinə görə, daha çox 50-60 yaşlı insanlarda aşkar edilən çoxsaylı mieloma riski yaşla artır: "Statistikaya görə, qadınlara nisbətən kişilər bu xəstəliyə daha çox meyllidirlər. Xəstəliyin diaqnostikası - laborator, radioloji müayinələr, sümük iliyi aspirasiya və biopsiyası, immunofiksasiya testləri əsasında aparılır. Vaxtında hematoloji müayinə və müalicənin aparılması xəstənin ömürlük əlil olmasının, dializdən asılı qalmasının qarşısını alır və uzun müddət yaşamasına şərait yaradır. Çoxsaylı mielomanın müalicəsində böyük elmi irəliləyişin olması, eləcə də yeni dərmanların yaradılması və müasir innovativ terapiyanın ortaya çıxması xəstələrin uzunmüddətli remissiyasına imkan verir. Hazırda bu xəstəliyin dərman müalicəsi kimyəvi terapiya, radioterapiya, CART-cell müalicəsi və sümük iliyi transplantasiyası ilə icra edilir".

Ş.Şabanova onu da vurğulayıb ki, hər qan azlığı çoxsaylı mieloma xəstəliyi demək deyil. Bununla belə, səbəbsiz anemiya aşkarlanarsa, bu xəstəliyin araşdırılması və hematoloji chek-up aparılması tövsiyə edilir. Həkimin sözlərinə görə, pasiyentlərin heç də hamısının innovativ müalicə metodlarından xəbəri yoxdur. Buna görə də xəstəliklə bağlı maarifləndirmə aylığı çərçivəsində müxtəlif tədbirlərin təşkili və məlumatların paylaşılması mühüm əhəmiyyət kəsb edir.

Onu da qeyd edək ki, həkim-hematoloq Ş.Şabanovanın ötən ay Şimali Kipr

Türk Cümhuriyyətində keçirilən "Hematoloji nadir xəstəliklər" Konqresində "Çoxsaylı mieloma xəstələrinin induksiya müalicəsində 4-lü rejim 3-lüyə qarşı" mövzusunda çıxış edib. O, xəstəliyin əlamətləri, profilaktikası və müalicəsi barədə konqres iştirakçılarına geniş məlumat verib.

# "Qrantların yazılışı: təklifdən uğuradək" mövzusunda seminar keçirilib




***Elmi Tədqiqatların İdarə Olunması Departamenti və Elmi Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə "Qrantların yazılışı: təklifdən uğuradək" mövzusunda seminar keçirilib. Tədbirdə qrant layihələrinin yazılması, təqdim edilməsi və beynəlxalq elmi qrant müsabiqələrində iştirak qaydalarına dair məlumatlar səsləndirilib.***

Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov çıxış edərək, uğurlu layihə yazılışı və ekspert qiymətləndirməsinin əsas meyarlarını izah edib. Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayev isə qrant layihələrinin hazırlanma mərhələləri haqqında ətraflı məlumat verib. Seminar çərçivəsində Cəmilə Hümbətova "Azərbaycan-Belarus Beynəlxalq Qrant Müsabiqəsi: əməkdaşlıq və müraciət qaydaları" mövzusunda təqdimatla çıxış edib.

Tədbirdə gənc alimlər və tədqiqatçılar üçün qrant imkanları, layihələrin uğur qazanmasına təsir edən vacib strategiyalar ətrafında geniş fikir mübadiləsi aparılıb, seminar iştirakçılarının çoxsaylı sualları cavablandırılıb. Qeyd olunub ki, elmi araşdırmalar və innovativ layihələrə dəstək məqsədilə bu mövzuda seminarlar davam etdiriləcək.

# Berlində keçirilən təlimdə təmsil olunmuşuq

**ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasının assistenti Nərmin Səfərova bu yaxınlarda Almaniyanın paytaxtı Berlin şəhərində olub. O, Almaniya İlk Yardım Cəmiyyətinin (Ein Projekt der Deutsche Erste-Hilfe Gesellschaft) layihəsi çərçivəsində sağlamlıq və təhlükəsizlik sahəsində peşəkar dəstək və düzgün müdaxiləyə həsr olunmuş təlimdə iştirak edib.**

Mütəmadi olaraq keçirilən bu təlimə dünyanın müxtəlif ölkələrindən seçilmiş 15 iştirakçı qatılıb. 5 nəzəri, 4 praktik moduldan ibarət olan təlimdə iştirakçılar qanaxmalar zamanı ilk yardım, qəza və travmalar zamanı müxtəlif müdaxilələr haqqında bilik və bacarıqlara yiyələniblər. Müharizələrdə orqanların anatomiyası və fiziologiyası haqqında geniş məlumat təqdim olunub, orqanizmin şok vəziyyətlərində verə biləcəyi reaksiyalar barədə nəzəri məlumatlar müzakirə edilib.

Təlim zamanı iştirakçılara real vəziyyətlərdə qanaxmanın dayandırılması, şok vəziyyətində olan şəxsə müdaxilə və kardiopulmonar reanimasiyanı (CPR) praktiki şəkildə tətbiq edərək həyati təhlükənin qarşısını almaq ətraflı izah olunub. Sonda iştirakçılar öz təcrübələrini bölüşüb, əldə etdikləri bilik və bacarıqlarla bağlı diskussiya aparıblar.



# Əməkdaşımız beynəlxalq proqramda uğurla iştirak edib

**Azərbaycan Tibb Universitetinin Tibb və sağlamlıq elmləri təhsili kafedrasının baş müəllimi Samirə Məmmədova Going Global Partnerships təşəbbüsü çərçivəsində British Council tərəfindən təşkil olunan "Researcher Connect Online Training" proqramında müvəffəqiyyətlə iştirak edib.**



Qeyd edək ki, bu təlim elmi kommunikasiyalar və beynəlxalq əməkdaşlıq bacarıqlarının inkişafına yönəlib. Təlimin məqsədi tədqiqatçıların elmi tədqiqatları effektiv təqdim etmək bacarığını artırmaq, akademik savadlılığın təkmilləşdirilməsi və beynəlxalq peşəkar əlaqələrin qurulmasını təmin etməkdən ibarət olub.

Əməkdaşlarımızın belə proqramlarda iştirak etməsi elmi inkişaf və qlobal akademik ictimaiyyətə inteqrasiya üçün yeni perspektivlər açmağa zəmin yaradır.

# Sağlam yuxu insan həyatında böyük rol oynayır

## İlhamə Hüseynova: Yuxu pozğunluğu bir çox xəstəliklərin səbəbidir

**Ümumdünya Yuxu Günü 2008-ci ildə ABŞ-da Dünya Yuxu Cəmiyyəti (World Sleep Society) tərəfindən təsis edilib və ilk olaraq Amerika Birləşmiş Ştatlarında qeyd olunub. Sonralar isə Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə yuxu və sağlamlıq problemləri çərçivəsində hər il yaz gecə-gündüz bərabərliyindən öncəki cümə günü (bu il 14 mart) tibbi təqvimə daxil edilib.**

Bu barədə məlumat verən ATU-nun II Uşaq xəstəlikləri kafedrasının müəllimi t.ü.f.d. İlhamə Hüseynova əlavə edib ki, bu əlamətdar gün 70-dən çox ölkədə Ümumdünya Yuxu Günü kimi qeyd olunur və bu hələ rəsmi bayrama çevrilməsə də, onun populyarlığı ildən-ilə artır: "Ümumdünya Yuxu Günü üçün tarix təsadüfən seçilməyib. Bu, gecənin qısalması və təbiətin yeni dövrə keçidi ilə insanların özlərini yenidən həyatın bahar ritminə kökləməyə başlamasını simvollaşdırır. Bu xüsusi günün əsas məqsədi sağlam yuxunun insan həyatı üçün vacibliyini vurğulamaq, sağlam yuxu vərdişlərini təşviq etmək, yuxu problemləri və onların həlli yolları istiqamətində əhalini maarifləndirməkdir.

Yuxu insan sağlamlığının, psixoloji balansın və ümumi həyat keyfiyyətinin əsas şərtlərindən olan mürəkkəb və dinamik bir prosesdir. Hələ qədim zamanlarda bir çox mütəfəkkirlər yuxunun faydaları haqqında dəyərli fikirlər söyləyiblər. Məsələn, Hippokrat "əgər yuxu xəstənin vəziyyətini yüngülləşdirirsə, o zaman xəstəlik müalicə olunur. Yuxu rahatlıq vermirsə, xəstəlik ölümcül olur" - deyə bildirmişdi. İbn Sina "sağlamlığın qorunmasında ən vacib şey fiziki məşqdir, daha sonra pəhriz və yuxu rejimidir" deyərək yuxu haqqında fikirlərini açıqlamışdı".

1925-ci ildə dünyanın ilk yuxu tədqiqat laboratoriyasına ev sahibliyi edən Çikaqo Universitetinin alimləri yuxunun bioloji funksiyaları, eləcə də yaddaşın möhkəmləndirilməsində və immunitet sisteminin qorunmasında əhəmiyyəti, o cümlədən yuxu çatışmazlığının mənfi təsirləri ilə bağlı ətraflı məlumatlar vermişdilər. 1939-cu ildə professor Nathaniel Kleitman (Çikaqo Universiteti) tərəfindən nəşr olunan "Yuxu və oyanıqlıq" dərsliyi uzun müddətdir ki, bütün dünyada yuxu tədqiqatçıları üçün əsas vəsait hesab olunur.

İ.Hüseynovanın sözlərinə görə, yuxunun əsas funksiyalarına enerji və psixi sağlamlığın bərpa olunması, immun sisteminin aktivləşməsi, şüur səviyyəsinin qorunması, termorequlyasiya və neyronların yetişməsi daxildir. Bu funksiyanın pozulması isə stress, diqqət dağınıqlığı, depressiya və hətta ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Alimlərin fikrincə, yaşlı insanın ideal yuxu dövrü sutkada 7-8 saat, körpələrdə 16-18 saat,



uşaqlarda isə (yaşdan asılı olaraq) 10 saat təşkil etməlidir. Tam normal yuxu onlarda diqqətsizlik təzahürlərini azaltmağa və davranışı yaxşılaşdırmağa kömək edir.

Həkim vurğulayıb ki, statistikaya görə, bütün dünyada insanların 24%-dən çoxu yuxu pozğunluğundan əziyyət çəkir: "Mütəxəssislər iddia edirlər ki, yuxusuzluq həyat keyfiyyətini aşağı salmaqla yanaşı, həm də fiziki fəallığın azalması və əsəb gərginliyinə gətirib çıxarır. Bununla yanaşı, yuxusuzluq metabolik sindrom, insulinə cavab vermək qabiliyyətinin azalması, hipertoniya, insult, infarkta və bir çox ürək xəstəliklərinə səbəb ola bilir. Uşaqlarda yuxunun pozulması həm sinir-psixi, həm də fiziki inkişafdan qalma, ürək-damar sistemi xəstəlikləri, qastroezofageal reflüks, hipertiroidizm, depressiya, xroniki xəstəliklərin inkişaf riskinin artmasına və s. səbəb olur. Lakin alimlərin uzunmüddətli araşdırmalarına baxmayaraq, yuxu ilə bağlı bəzi məqamlar hələ də tam aydınlaşdırılmayıb. Ümumdünya Yuxu Günü bizə yuxu rejimimizi nəzərdən keçirməyi, texnologiyalardan bir qədər uzaqlaşıb orqanizmimiz üçün rahat bir mühit yaratmağı və bədənimizə ehtiyac duyduğu istirahəti verməyi xatırladır. Bu gün yuxu vərdişlərinizi yaxşılaşdırmaq üçün bir addım atın - erkən yatın və sağlam yuxunun həyatınızı necə dəyişdirdiyini hiss edin".

**M.ƏLƏKBƏRLİ**

# Komandamız intellektual oyunun qaliblərindən biri olub

**"Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə 2000-dən artıq tələbənin qatıldığı Universitetlərarası Azərbaycan Çempionatı yekunlaşıb. Bakı Konqres Mərkəzində 25 ali təhsil müəssisəsindən 33 komandanın yarışdığı final mərhələsinin qalibləri elan olunub.**




Final mərhələsində iştirakçılara 48 sual təqdim edilib. Bakı Ali Neft Məktəbinin "Stonks" komandası ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Vendetta" komandası 31 suala düzgün cavab verib. Əlavə göstəricilərə əsasən, "Stonks" komandası çempionatın qalibi elan edilib. Üçüncü yeri isə 30 suala doğru cavab verən Azərbaycan Tibb Universitetinin "Old school" komandası qazanıb. Qalibləri Elm və Təhsil Nazirliyinin şöbə müdiri Səbuhi Rzayev mükafatlandırıb.

Qeyd edək ki, layihə Elm və Təhsil Nazirliyi, Gənclər Fondu, "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, "3 sual" intellektual oyunlar platforması və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə həyata keçirilir.

Layihənin əsas məqsədi tələbələrin intellektual potensialını üzə çıxarmaq, onların bilik və məntiqi düşüncə qabiliyyətlərini inkişaf etdirmək və universitetlərarası intellektual mühitin formalaşmasına dəstək olmaqdır. Eyni zamanda, bu cür yarışlar gənclərin komanda şəklində işləmə bacarıqlarını gücləndirir və elmi biliklərini praktik olaraq tətbiq etmələrinə imkan yaradır.

# Həmkarları və tələbələri üçün örnək olan istedadlı pedaqoq

**Bu günlərdə istedadlı pedaqoq, uzun illər Azərbaycan Tibb Universitetinin Tibbi və bioloji fizika kafedrasının dosenti və tədris hissə müdiri kimi fəaliyyət göstərmiş Elaza Səməd qızı Hüseynovanın 90 illik yubileyi qeyd olunur.**



1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Fizika-riyaziyyat fakültəsini bitirərək fizika ixtisasına yiyələnən Elaza xanım 1968-ci ildə dissertasiya işini uğurla müdafiə edib. O, 1969-cu ildən Azərbaycan Tibb İnstitutunun Tibbi və bioloji fizika kafedrasında pedaqoji fəaliyyətə başlayıb və burada baş müəllim kimi fəaliyyət göstərib. 1971-ci ildən etibarən isə dosent vəzifəsində çalışan Elaza xanım uzun illər ərzində gənc tibb mütəxəssislərinin yetişməsinə mühüm töhfələr verib.

Bu illər ərzində E.Hüseynova öz işinə münasibətdə hədsiz məsuliyyətliliyi və dəqiqliyi ilə seçilib. Onun dərslərində tələbələrə elmi biliklər aşılanmaqla yanaşı, nizam-intizam həmişə əsas yer tutub. Kafedranın tədris hissə müdiri vəzifəsində çalışdığı uzun illər ərzində universitetin tədris prosesinin təşkilində mühüm rol oynayıb, dərs proqramlarının təkmilləşdirilməsi, metodiki vəsaitlərin hazırlanması və akademik intizamın gücləndirilməsinə öz töhfəsini verib.

Eyni zamanda, Elaza xanım həmkarları arasında səmimi, mehriban və yardımsevər bir insan kimi tanınıb. O, həmkarlarına həmişə dəstək olub, elmi və pedaqoji məsələlərdə onlarla yaxından əməkdaşlıq edib. Kafedrada əməkdaşlıq ruhunu qorumaq və elmi diskussiyalar aparmaq onun pedaqoji fəaliyyətinin mühüm hissəsi olub.

Əzizimiz Elaza xanım, Siz uzun illər boyu işinizə olan sevginiz, prinsipiallığınız və yüksək insani keyfiyyətlərinizlə həmkarlarınıza və tələbələrinizə dəyərli örnək olmusunuz. Bu əlamətdar gün münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı və doğmalarınızın əhatəsində uzun ömür arzulayırıq!

**Tibbi və bioloji fizika kafedrasının əməkdaşları**

**Dünyadan bizimkilər**

# "Azərbaycanda yaşamağa və təhsil almağa dəyər"

## Türkiyəli tələbələrimiz deyir ki, ölkəmizin insanları da, təbiəti də, mətbəxi də çox gözəldir

**Azərbaycan Tibb Universiteti dünyanın müxtəlif ölkələrindən olan gənclərə qucaq açaraq, onları tibbin müxtəlif sahələri üzrə dərin biliklərlə təmin edir. Rubrikamızın bu dəfəki qonaqları qardaş Türkiyədən gəlmiş tələbələrimizdir. Onlar universitetimizdəki şəraitdən, təhsil səviyyəsindən, öz müəllimlərindən, eləcə də Bakıda olmaqdan, milli yeməklərimizdən razılıqla danışırlar. Azərbaycanı, nə üçün ATU-nu seçmələri və s. məqamlarla bağlı gəlin, onları dinləyək.**



Egehan Arslantürk I Müalicə-profilaktika fakültəsinin 1-ci kursunda oxuyur. Universitetimizi bir qohumunun məsləhəti ilə seçib: "Ailəm Kuşadasında yaşayır. Qrup nümayəndəsiyəm. Mənim Azərbaycana üz tutmağıma səbəb buranın təkcə qardaş ölkə olması deyil, həm də həkim olmaq arzumla əlaqədar idi. Doğrudur, ilk günlər bir az çətinliklərimiz olsa da, xeyirxah müəllimlərimizin sayəsində aradan qaldıra bildik. Dekanımız Natiq Bayramov, dekan müavinlərindən Nüşabə İsgəndərova, Elnarə Nəbiyeva, Niyazi Hacızadənin göstərdiyi dəstəyi unuda bilmərəm. Məhz onların və digər müəllimlərimizin sayəsində qısa müddətdə Azərbaycana adaptasiya ola bildik. Azərbaycanlı tələbələrin dəstəyi də çox yerinə düşdü. İstər dərslərimiz, istərsə də hansısa başqa bir sıxıntı ilə üzləşəndə həmişə azərbaycanlı qardaşlarımın yardımını görmüşəm. Onların qayğısı və isti münasibəti məni duyğulandırıb".

Egehan Bakını gəzib, paytaxtımızı bəyənib, Azərbaycanın bəzi bölgələrində də olub: "Bakı çox xoşuma gəldi. Təmiz və yaraşıqlı şəhərdir. Sanki Avropanın hansısa bir şəhərindəsən. Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda edənlərin məzarlarını ziyarət etdim, ruhlarına dualar oxudum. Qənimətlər Parkında da oldum. Parkı gəzdikcə Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinin cəsurluğu, mərdliyi gözlərim önündə canlandı. Düşündüm ki, görün onlar nələrin bahasına bu qədər silah-sursatı qənimət kimi əldə edə bilib.

Yeməkləriniz də çox dadlıdır. Yarpaq dolması, üç bacı dolmasını yeməklə doymaq olmur. Qurutlu yarpaq xəngəlinin də ayrı bir ləzzəti var. Mədəniyyətlərimiz oxşar olduğu üçün mətbəximiz də bir-birinə çox bənzəyir".

Lənkərana səyahət etməyə macal tapmış Egehan deyir ki, oranın bir başqa gözəlliyi və havası var: "Lənkəran çayının xüsusi dadı və ətri adamı məst edir. Türkiyəyə gedəndə evimizə alıb aparmışdım. Dəmlədilər, içdilər, çox xoşlarına gəldi. Atam tapşırıb ki, nə vaxt gəlsəm, yenə alım aparım".



Selin Sena Çinarın ailəsi isə Ankarada yaşayır. O da 1-ci kurs tələbəsidir və qrup nümayəndəsidir: "Ailəmizin Azərbaycandan olan dost-tanışları çoxdur. Qohumlarımızdan da burada yaşayanlar var. Həm də Azərbaycan qardaş ölkə olduğu üçün ali təhsilimi burada almaq istədim. Qərarımı verdim və Azərbaycan Tibb Universitetini seçdim. Doğrudur, ailədən uzaqda yaşamaq çətindir. Amma mən Azərbaycanda özümü sanki evimizdəki kimi hiss edirəm. Dil məsələsində bəzən sıxıntılarımız olanda, müəllimlərimiz ətraflı izah edir, bizi çətinlik çəkməyə qoymurlar. Universitetdə də, ondan kənarda da hara getsək, hər kəs çalışır ki, kömək etsin. Bu olduqca gözəl bir haldır. Müəllimlərimizdən Səbinə Şadlinskaya sanki bizimlə doğma bir insandır. Həmişə maraqlanır, əlindən gələn köməkliyi göstərir ki, sıxıntı çəkməyək. Leyla müəllimənin də zəhmətini unutmaq olmaz. İlk gündən isti münasibətini görmüşük. Ümumiyyətlə bütün müəllimlərimdən razıyam. Hər kəsdən özümüzə qarşı hörmət və ehtiram gördüm".

Selin ingilis dili bölməsində təhsil alır. Deyir ki, bu onun təkcə Azərbaycandan deyil, Pakistan və digər ölkələrdən də çoxlu rəfiqələr qazanmağına səbəb olub: "Bir problem yarandıqda hamımız bir-birimizə kömək edirik. Universitetimiz də güvənlidir. Tələbə yoldaşlarımla yaxşı münasibətlərim var. Hətta bəzilərinin evlərinə də getmişəm. Bakı təhlükəsiz şəhərdir. Ankarada gecə saat 11-dən sonra qızlar təkbaşına gəzə bilməz. Amma burada elə bir narahatlıq yoxdur. Nə zaman şəhərə çıxsan, kimsənin səninlə işi olmaz. Bu çox gözəldir. Azərbaycanı seçməyimdən peşman deyiləm".

Selin milli yeməklərimizdən, toylarımızdan ağızdolusu danışdı: "Ətli yeməkləriniz çox dadlıdır. Bizdə ətə ədviyyat çox vurulur. Sizdə isə çox istifadə edilməz. Ona görə də ətin öz dad-tamı qalır. Yeyəndə bunu hiss edirsən. Xüsusilə kabablarınız çox dadlıdır.

Sizin toylarda da olmuşam. Türkiyə toylarından çox fərqlidir. Yeməyi bol verirsiniz. Süfrədə nədən başlayıb, nədən qurtaracağını bilmirsən. İlk dəfə toyda olanda bunu görüb, çox çaşdım. Fikirləşdim ki, bu qədər yemək nə üçündür? Gördüm hamı yeyir, mən də yedim (gülür). Yeməklər, salatlar – hamısı çox dadlı idi".

Selin Bakının görməli yerlərində olub, Heydər Əliyev Mərkəzinə, Dağüstü Parka baş çəkib: "Dağüstü Parkdan Bakını seyr etmək ruhuma bir dinclik verir. Türkiyədən yanıma gələnlər olanda ora aparıram ki, Bakını seyr edib, heyran qalsınlar".

Həmsöhbətimiz gələcəkdə ya plastik cərrah, ya da dermatoloq olmaq fikrindədir. Hələ ki qərar verməyib: "Hər dərsə qatıldığımızda yeni şeylər öyrənirik. Ona görə gələcəkdə fikrim dəyişə də bilər".

Daha bir tələbəmiz Muhammed Furkan Han Stomatologiya fakültəsinin 1-ci kursunda oxuyur. O da qrup rəhbəridir. Gələcəkdə implantoloq, üz-çənə cərrahı sahəsində uzman olmaq istəyir.

Muhammed Bakını daha yaxşı tanıyır. Çünki iki ildir Azərbaycandadır: "Universitetin diplomu başqa ölkələrdə tanındığı üçün seçdim. ATU-nu bitirdikdən sonra Almaniyada təhsilimi davam etdirmək niyyətindəyəm. Bizə dərs keçən müəllimlərdən çox razıyam. Hər məsələdə kömək edirlər. Dekanımız, dekan müavinləri hər an yanımızdadırlar. O səbəbdən də özümü burada tənha hiss etmirəm".



İndiyədək Şəhidlər Xiyabanında, Dənizkənarı bulvarda, ticarət mərkəzlərində olub, Bakını bəyənib. Üzgüçülüyü çox sevir. Bunun üçün adətən Mərdəkana gedir: "Naxçıvanda da olmuşam. Ora da çox gözəl və qədim bir məkandır. Sanki insan ecazkar bir aləmə düşür. Qədimiliyi insanı çox çəkir.

Yeməklərdən isə yarpaq dolması xüsusilə xoşuma gəldi. Qazlı sularınızdan da içirəm. Bir sözlə, Azərbaycanın insanları da, təbiəti də, yeməkləri də çox gözəldir. Burada yaşamağa və təhsil almağa dəyər".

**Qabil ABDULLAYEV**

**Allah rəhmət eləsin!**

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın dosenti Leyla Talışinskiyə anası

**Tamfira Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları II Daxili xəstəliklər kafedrasının professoru

**Tamfira Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0006
Sayı 800